

# “QUTUDA HƏYAT”

AZƏRBAYCANDA YAŞLI INSANLARIN KÖÇKÜNLÜK TƏCRÜBƏSI VƏ QAYIDIŞ PERSPEKTIVLƏRI

AMNESTY INTERNATIONAL

**Amnesty International hər bir kəsdə insanlığı səfərbər edən və hamımızın insan haqlarına sahib olmamız üçün dəyişiklik kampaniyası aparan 10 milyon insanın hərəkatıdır.**

**Bizim dünyagörüşümüzə görə, hakimiyyət nümayəndələri vədlərini yerinə yetirməli, beynəlxalq qanunlara riayət etməli və hərəkətlərinə görə məsuliyyət daşımalıdırlar.**

**Bizim dünyagörüşümüzə görə, hakimiyyət nümayəndələri vədlərini yerinə yetirməli, beynəlxalq qanunlara riayət etməli və hərəkətlərinə görə məsuliyyət daşımalıdırlar.**

**Biz inanırıq ki, hər yerdə insanlarla həmrəylik və rəğbətlə hərəkət etməklə cəmiyyətimizin yaxşıya doğru dəyişikliyinə nail ola bilərik.**

© Amnesty International 2022
Başqa cür qeyd olunan hallar istisna olunmaqla bu sənəd Creative Commons qaydası ilə (attribution, non-commercial, no derivatives, international 4.0) lisenziyalanmışdır .
https://creativecommons.org/licenses/by-nc-nd/4.0/legalcode
Daha ətraflı məlumat üçün, saytımızın icazələr səhifəsini Müəllfilik hüququ Amnesty International-dan başqa hər hansı başqa mənbəyə istinad etdiyi hallarda Creative Commons lisenziyası ona şamil edilmir .
İlk dəfə 2022-ci
ildə Amnesty International Ltd
Peter Benenson House, 1 Easton Street
London WC1X 0DW, UK, tərəfindən dərc edilib

**Index: EUR 55/5215/2012**
**ORIJINAL DIL: İNGİLİSCƏ**

**amnesty.org**

***Örtük şəkli :*** *Bir yaşlı qadın məcburi köçkünlər üçün yataqxananın pəncərəsindən bayıra baxır, Bakı, Azərbaycan © Əhməd Muxtar*

# İŞÇİ XÜLASƏ

Ermənistanla Azərbaycan arasında, hər iki dövlət hələ Sovet İttifaqından müstəqil olmazdan əvvəl də mübahisəli olan Dağlıq Qarabağ uğrunda 1990-cı illərdəki silahlı münaqişə Azərbaycan üçün böyük ərazi itkiləri ilə nəticələnmişdi. Azərbaycan Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayondan köçkün düşən yarım milyondan çox əhalini məskünlaşdırmaqda çətinlik çəkdiyinə görə, onların çoxu sıx cadır düşərgələrində, yataqxanalarda, məktləblərdə və sakinsiz binalarda illər və bəzi hallarda onilliklərlə yaşamağa məcbur olublar.

2020-ci ildə Ermənistanla yenidən başlanan döyüşlər Azərbaycanın 1990-cı illərdə itirdiyi ərazilərin çoxunu öz nəzarəti altına qaytarması ilə nəticələnib və Azərbaycan bu ildən etibarən bu əraziləri köçkünlərlə məskunlaşdırmağı planlaşdırır. Xüsusilə də Ermənistan qüvvələrinin nəzarəti altında olarkən bu ərazilərdə piyadalara qarşı minaların basdırıldığı və daşınmaz əmlakın geniş dağıntılara məruz qaldığı nəzərə alınarsa, yüz minlərlə köçkünün bura qaytarılması potensial olaraq çətin vəzifədir. Qayıdışla bağlı söhbətlər bütün məcburi köçkünlər, xüsusilə də bu hesabatın diqqət mərkəzində olan yaşlı insanlar üçün suallar doğurur. Bu insanlar çox vaxt humanitar hesabatlarda görünmürlər, halbuki müharibədən əvvəlki icmalara güclü bağlılıqlarına görə qayıtmaq qərarı qəbul edənlərin arasında belə insanların çoxluğu ehtimalı böyükdür.

Bizim araşdırmamız göstərir ki, Azərbaycan hökuməti son 20 il ərzində məcburi köçkünlərin məişət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş mühüm addımlar atıb, lakin narahatlıq doğuran bir çox çatışmazlıqlar hələ də qalmaqdadır. Yaşlı məcburi köçkünlərin çoxu fiziki olaraq giriş və çıxışı məhdud evlərdə və başqa qruplarla bərabər əsasda dolanmaq imkanları olmayan icmalarda yaşamaqdadır. Yaşlı məcubri köçkünlər də daxil olmaqla, məcburi köçkünlərlə yaşadıqları yer və ya şəraitə dair istəkləri barədə çox nadir hallarda məsləhətləşirlər.

Genişmiqyaslı qayıdış imkanı yaxınlaşdıqca, Azərbaycan hökumətinin bu cür qayıdışların planlaşdırılmasında və həyata keçirilməsində yaşlı köçkünlərin rəylərinin düzgün şəkildə nəzərə alınmasını dərhal prioritetləşdirməsi çox vacibdir.  Hakimiyyət xüsusilə də yaşlı köçkünlərlə məlumatı müntəzam olaraq, anlaşılan və əlçatan şəkildə paylaşmalı və onların yaşayış, dolanışıq, təhlükəsizlik və icma dəstəyi xidmətlərindən istifadəyə dair qərarlarda tam şəkildə iştirakını təmin etməlidir.

2021-ci ilin noyabr ayında Azərbaycan və Ermənistanda üzbəüz müsahibələr daxil olmaqla, bizim araşdırmamız 2021-ci ilin sentyabr və dekabr ayları arasında aparılmışdır. Amnesty International Azərbaycanda yaşları 58 və 88 arasında, 23-ü yaşlı kişi, 17-si isə yaşlı qadın olan, 40 nəfər yaşlı köçkünlə müsahibələr keçirib. Bu hesabat yaşlı köçkünlərin dolanışığı və qənaətbəxş yaşayış yerlərilə təminatı da daxil olmaqla, onların üzləşdiyi spesifik maneələri işıqlandırır və Azərbaycan hökumətinin qayıdışlara dair söhbətlərə yaşlı insanları da mənalı şəkildə daxil etməsi üçün gələcəyə yönəlik mümkün sualları təqdim edir.

Ayrıca olaraq, Amnesty International Dağlıq Qarabağda və Ermənistanda 42 nəfər yaşlı insandan və münaqişədən təsirlənmiş yaşlı insanların bir çox qohumlarından da müsahibələr alıb. Bu araşdırmanın diqqəti əsasən 2020-ci ildəki zorakılıqdan qeyri-mütənasib şəkildə təsirlənmiş yaşlı etnik ermənilərin təcrübəsinə yönəlib. Hesabatımız üçün bizim müsahibə aldığımız yaşlı azərbaycanlıların əksəriyyəti 1988 və 1994-cü illər arasında etnik ermənilərin və erməni qüvvələrinin zorakılığının şahidi olduqlarını və ya bu zorakılıqlara məruz qaldıqlarını söyləmələrinə baxmayaraq, bu hadisələrin bir çox il öncə baş verməsinə görə onları təsdiqləmək çətin idi. Nəticədə, hesabatımıza bu hekayətlərin bəziləri daxil edilsə də, onun diqqət verdiyi əsas mövzu Azərbaycanda yaşlı insanların köçkün düşməsi və qayıdışına dair məsələlərdir.

Beynəlxalq qanuna əsasən, yaşlılığı müəyyən edən spesifik təfsir yoxdur. Xronoloji yaş, məsələn 60 yaş və ya yerli pensiya yaşı çox vaxt yaşlılığın ölçüsü hesab olunur, lakin bu, hər hansı bir şəxsin yaşlılıqla ümumiyyətlə əlaqələndirilən risklərə məruz qalıb-qalmadığını göstərmir. Yaşlılıq üçün Amnesty International

kontekstə spesifik yanaşmaya üstünlük verir, bu isə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İdarəsi (OHCHR) tərəfindən dəstəklənən üsul olaraq spesifik kontekstdə yaşlı insanların özləri və başqları tərəfindən yaşlılığın necə müəyyənləşdirildiyini nəzərə alır.

## ZORAKILIĞIN MİRASI

Azərbaycan hökumətinin dövlət statistikasına əsasən, 1988 və 1994-cü illər arasındakı münaqişədə təxminən 8,000 dinc azərbaycanlı öldürülüb. Bu hesabat üçün danışdırılan hər bir kəs öz hüquqlarının sərt şəkildə pozulmasını yaşayıb. Onların bəziləri təqib edilib və ya qorxudularaq qaçmağa məcbur olub, digərləri öz evlərinin partlayıcı qurğularla hədəfləndiyini və ya yandırılaraq məhv edildiyini görüb, bir başqaları isə mülki əhalinin məskunlaşdığı yerlərə erməni ordusunun endirdiyi artilleriya zərbələrindən qaçıb. Bu yaşantılar köçkün edilmiş insanlarda uzunmuddətli izlər buraxıb və onların fiziki və psixi sağlamlığına davamlı təsir göstərib.

1993-cü ildə Kəlbəcər rayonundakı evini tərk edərkən 60 yaşı olan, indi isə 88 yaşlı Həsən M., zorakılıqdan qaçarkən özünün və digərlərinin necə məşəqqətlərlə üzləşdiyini xatırlayıb: “Qar içində kilometrlərlə piyada yerimək yaşlı insan üçün çox çətindir” – deyib, - “Mənim yaşımda olan çox adam əziyyət çəkib.”

1993-cü ildə erməni qüvvələrinin atəşindən qaçarkən başından xəsarət alan 67 yaşlı Minarə M., avtomobil qəzasına düşüb. O, bu xəsarətin ona yaşlı bir insan olaraq necə təsir etdiyini təsvir edib: “Mən illərlə pambıq sahəsində işləmişəm, lakin günəş altında olmaq mənim üçün çətindir; yarama görə hər zaman hüşumu itirirəm.”

Bəzi müsahiblərimiz öz icmalarından olan yaşlı insanların daha ləng olduqlarına və ya qaçmağa imkanı olmadıqlarına görə qeyri-mütənasıb şəkildə çox sayda yaralandıqlarını və ya öldürüldüklərini deyiblər. Yaşlı insanların dinc əhali itkiləri arasında hansı nisbəti təşkil etdiyni göstərən müstəqil statistikalar yoxdur. Amnesty International-ın bir çox münaqişələr üzrə apardığı araşdırmalar göstərir ki, əlilliyin yaratdığı çətinliklər, təxliyə tədbirləri barədə məlumatsızlıq və ya evləri və torpaqlarına dərin bağlılıqları kimi səbəblərə görə, yaşlılar çox zaman zorakılıqdan ən son qaçan insanlar olurlar.

1990-cı illərdə, erməni qüvvələri işğal etdikləri Azərbaycan rayonlarında, mədəniyyət obyektləri də daxil olmaqla, mülki əmlak və infrastrukturun genişmiqyaslı məhvini törətmiş və ya bu hallara rəhbərlik etmişdir. Bu hesabat üçün müsahibə aldığımız insanların demək olar, hamısı 2020-ci ildəki münaqişədən sonra, onların kənd və ya şəhərlərini ziyarət etməyə imkanları olan daha gənc qohumlarının və ya başqalarının çəkdikləri şəkil və videolarda, onların evlərinin və hətta bəzi hallarda ağaclarının, bağlarının və məzar daşlarının məhv edildiyini gördüklərini bizə deyiblər. Azərbaycan hökuməti yalnız 2021-ci ildə erməni qüvvələrindən qalan 40,000 mina və digər partlamamış hərbi sursatları təmizlədiyini bildirib. Minatəmizləmə səyləri hələ də davam etdirilməkdədir.

Erməni qüvəllərinin mülki obyektləri məhv etməsi və hərbi zərurət olmadan mülki əmlakı ələ keçirməsilə yanaşı dinc əhalinin ölümü və ya şikəst edilməsilə nəticələnən minalardan genişmiqyaslı istifadəsi beynəlxalq humanitar qanunun pozuntularıdır və Azərbaycanın, köçkün əhalinin münaqişədən təsirlənmiş rayonlarda yenidən məksunlaşmasına yönəlmiş səylərinə maneə yaratmaqda davam edir.

## KÖÇKÜNLÜYÜN ÇƏTİNLİKLƏRİ

1990-cı illərdə yarım milyondan çox insan Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayondan Azərbaycanın digər bölgələrinə məcburən köçkün düşəndən sonra, çoxları izdihamlı çadır düşərgələri, yataqxanalar, məktəblər, sanatoriya binalarında və ya atılmış qatar vaqonlarında, talvar və ya binalarda yaşamağa məcbur olublar. Bu adamlar onlarca insanla duş paylaşmalı və bəzən elektriksiz, qızdırıcısız və susuz şəraitdə yaşamağa məcbur olublar. Onlar elementar ehtiyaclarını ödəməkdə və zəruri yemək və dərman almaqda çətinlik çəkiblər.

Rəsmi rəqəmlərə əsasən, hazırda təxminən 700,000 məcburi köçkün əhalisinin 350,000-i üçün mənzil və ev tikilməsi də daxil, son 20 il ərzində Azərbaycan hökuməti 1990-cı illərdə məcburi köçkün edilənlərin yaşayış şəraitlərinin yaxşılaşdırılmasına yönəlik xeyli səy göstərib. Məcburi köçkünləri habelə 60 manat (35 ABŞ dollar) və ya 33 manat (19 ABŞ dollar) aylıq ödənişlə təmin ediblər. Dünya Bankının statistikasına əsasən, 1990-cu illərdən bəri məcburi köçkün əhalisində yoxsulluq faizi azalıb.

İrəliyə doğru mühüm addımlar atılmasına baxmayaraq, hökumət statistikası göstərir ki, ən azı 20,000 – və bəlkə də 100,000-dək məcburi köçkün hələ də yataqxana və digər qeyri-yaşayış yerləri kimi çətin şəraitlərdə yaşamaqdadır. Bu yaşayış yerlərində çox zaman tünlük və sıxlıq olur. Əlil insanları üçün belə yerlərdə yaşamaq ya çətin ya da ki, mümkünsüzdür və bu səbəbdən xüsusilə də yüksək mərtəbələrdə yaşayan əlil yaşlı insanlar sadəcə ayaqyoluna getmək və ya evlərindən çıxmaq üçün qohumlarının və ya başqalarının köməyinə möhtac olurlar.

“Bura bir zindan kimidir, heç havası yoxdur...”  Bunu bir yataqxananın 3-cü mərtəbəsində yaşayan və gəzmək üçün əl ağacından istifadə edən 81 yaşlı Mənzər A. deyir: “İndi də oğlum xəstə olduğuna görə yemək almaq üçün aşağı düşə bilmirəm. Bayıra çıxa bilmirəm. Əgər çıxmağım vacibdirsə, başqaları mənə kömək etməlidir”.

2020-ci ildəki münaqişədən və məcburi köçkün əhalinin geriyə qaytarılmış ərazilərdə yenidən məskünlaşmasına dair planlar yarandıqdan sonra hökumət köçkünlərin yeni yaşayış sahələrinə köçürülməsini dayandırıb. Bu məsələdə giriş və çıxışı məhdudiyyətli yaşayış yerlərində yaşayan əlil insanlar da daxil, yaşlılar üçün hər hansı istisnalar edildiyi müşahidə olunmur.

Amensty İnternational bu hesabatın araşdırıldığı dövrdə hökumətin təmin etdiyi mənzil və ya evlərdə yaşayan 20 nəfər yaşlı insandan müsahibə alıb. Köçkünlərin dövlət mülkü sayılan bu evlərə sahib olmaq və ya bu evləri icarəyə vermək hüququ yoxdur. Demək olar ki, bütün müsahiblərimiz hazırki məişət şəraitlərinin əvvəl yaşadıqları izdihamlı çadır düşərgələri və digər yaşayış yerlərindən qat-qat daha yaxşı olduğunu desələr də, onlara yaşadıqları yer barədə heç bir seçim verilmədiyini və hətta başqa yerə köçmək istədikləri təqdirdə, bunun onlara dövlətin verdiyi evdən imtina etmədən mümkün olmadığını qeyd ediblər.

Keçmiş cəbhə xəttinə yaxın və məşğulluq imkanları məhdud olan Tərtər şəhərinin bir qəsəbəsində yaşayan 71 yaşlı Famil M., deyib: “əlbəttə dəfələrlə köçmək barədə fikirləşdik, amma imkanımız yox idi. Mən bu yerdən köçmək istərdim”.

Maliyyə ödənişləri və pulsuz evlərlə təminat köçkün ailələrin maddi vəziyyətinin yaxşılaşmasına kömək etsə də, yaşlı köçkün insanlar ikiqat diqqətsizliklə üzləşirlər. Onlar çox zaman rəsmi işdən yaş ayrıseçkiliyinə görə çıxarılırlar, yaşadıqları yerlərdə çox vaxt əkinçilik və ya malqara saxlamaq üçün lazımi torpaqları və ya xalçaçılıq və digər əl işlərilə məşğul olmaq üçün zəruri alət və avadanlığı olmur. Yaşlı insanlar bu qənaətdədirlər ki, köçkün olmayan əhali daha yaxşı torpaq, malqara və digər dolanışıq imkanlarına sahib olduğuna görə daha yaxşı həyat yaşayırlar.

71 yaşlı Ramiz A., deyib: “65 yaşıma çatanda, işlədiyim şirkətin kadrlar şöbəsi mənə dedi ki, yaş həddinə çatmışam və pensiyaya çıxmalıyam...Amma mən iş sevən adamam və kənd təsərrüfatı işini yaxşı bacarıram. Əgər öz kəndimdə olsaydım, çoxlu pul qazana bilərdim, öz ətimi, yumurtamı, məhsullarımı yetişdirə bilərdim....köçkünlükdə həyat boşdur”.

Bu hesbat üçün toplanan müsahibələr mühüm bir həqiqəti vurğulayır: yaşlı insanlar deyirlər ki, az qala 30 il ərzində köçkün olaraq yaşayarkən, onlarla çox nadir hallarda yaşadıqları yer və ya şərait barədə məsləhətləşiblər. Yüz minlərlə insanın potensial olaraq yenidən məskunlaşması yaxınlaşdıqca, hökumətin bu dəfə fərqli yanaşma göstərməsi, yaşlı qadınlar və tənha yaşayan yaşlı insanlar da daxil, məcburi köçkün yaşlıların qayıdışına dair söhbətlərdə onların mənalı iştirakını təmin etməsi mühümdür.

## GERİYƏ QAYIDIŞ PERSPEKTİVİ VƏ İRƏLİYƏ YOL

Köçkün düşmüş hər bir insanın öz doğma evinə ləyaqətli və təhlükəsiz şəkildə qayıtmaq hüququ var. Bu isə erməni qüvvələrinin 1990-cı illərdə ələ keçirdiyi rayonlarda mülki evlərin və infrastrukturun böyük qismini məhv etdiyi Azərbaycanda çətin bir vəzifədir və bunu yerinə yetirmək məqsədilə Azərbaycan hökuməti 2021 və 2022-ci illərdə minatəmizləmə və infrastrukturun yenidən qurulması üçün hər il 2,2 milyard manat (1.3 milyard ABŞ dolları) ayırıb. İndiyədək bəzi mədəniyyət və turizm infrastrukturunun yenidən qurulmasına başlanıb, lakin 2022-ci ilin yanvar ayınadək yalnız 200 evdən ibarət bir kənd yenidən məskunlaşma üçün hazırdır. Xəbərlərə görə kəndin rəsmiləri gənc əhali üçün məktəb və digər infrastrukturun tikilməsinə vaxt lazım olduğundan, bu kəndə ilk qayıdanlar arasında məhz yaşlı insanların olacağını qeyd ediblər.

İllərlə köçkün həyatının dərin çətinlikləri və qeyri-müəyyənlikləri̇lə yaşayan və hesabatımız üçün müsahibə aldığımız yaşlı insanların demək olar ki, hamısı doğma kənd və şəhərlərini ziyarət etmək imkanından çox ruhlanıblar. Lakin geriyə həmişəlik qayıdışa gəldikdə isə, gərgin təhlükəsizlik vəziyyətini nəzərə alaraq, çoxları bununla yanaşı böyük çətinliklərin olduğunu qeyd edirlər. 72 yaşlı Mehriban M. deyib: “Ermənilərə yaxın yaşamağa gəldikdə, mənim təhlükəsizliklə bağlı böyük narahatlıqlarım var. İki xalqımız arasında çoxlu yaralar var. Öldürülən çox adam tanıyıram”.

Bir çox hallarda, yaşlı insanlar müharibədən əvvəlki icmalarında həyatlarını yenidən bərpa etmək üçün hökumətdən maddi yardım və dəstək xidmətlərinə ehtiyacları olacağını deyiblər. Onlar narahatdırlar ki, ailələrinin gənc üzvləri işlərini tərk etmək və ya hazırki icmalarında evlilik həyatı qurduqlarına görə onlarla birlikdə qayıtmaq istəməyə bilərlər. Bu isə xüsusilə də səhhəti ilə bağlı çətinliyi olan yaşlı insanlar üçün kəskin problemdir. 65 yaşlı Təranə M, deyib: “Tək getmək çətin olacaq, çünki mən ağır əşyaları daşıya bilmirəm və artıq bir dəfə infarkt keçirmişəm...hətta bazarlığa çıxsam belə təkbaşına ağır yükü daşıya və ya odun yığa bilməyəcəm.”

Azərbaycan hökuməti bildirib ki, köçkün əhalinin 90-95 faizi ilə qayıdışları barədə sorğu aparıb və dövlət uiniversitetləri həm onlayn, həm də üzbəüz sorğular keçirib. Bu hesabat üçün müsahibə verən yaşlı insanların bir çoxu hansısa bir dövlət qurumu tərəfindən onlarla telefonla əlaqə saxlandığını və onlara qayıdışları barədə suallar verildiyini qeyd ediblər, lakin bu sorğuların heç bir nəticəsi ictimailəşdirilməyib. Şəffaflığın olmaması geriyə qayıdış vaxtı hökumətin yaşlı köçkünlər də daxil, köçkünlərin ehtiyaclarını necə qarşılayacağının qiymətləndirilməsini çətinləşdirir. Bəzi sorğu proseslərində, yaşlı qadınlar, yaşlı əlillər və daha qoca insanlar da daxil olmaqla, müxtəlif adamların mənalı iştirakını təmin etmək üçün lazımı səylər edilmişdir.

Bəzi yaşlı insanlar qayıdışa dair söhbətlərdən kənar saxlandıqlarını hiss etdiklərini deyiblər. 67 yaşlı Malik S. deyib: "Hiss edirəm ki, rəylərimə qulaq asılmır, çünki indi heç yerdə iştirak etmirəm. Pensiyaçı olaraq günlərimin əksəriyyətini bağda keçirirəm. Kəndimi məndən yaxşı bilən yoxdur, lakin strategiyanı Bakıdakı adamlar formalaşdırır".

Böhranlı vəziyyətlərdə yaşlı insanlar çox vaxt yaddan çıxırlar. Bu qismən də ona görə baş verir ki, bir çoxları qohumlarının, dostlarının, qonşularının və ya başqalarının onların qayğısına qaldıqlarını və onları təmsil etdiklərini düşünürlər. Genişmiqyaslı yenidən məskünlaşmanın uzun müddət çəkəcəyini nəzərə alsaq, Azərbaycan hökuməti köçkün yaşlı insanları uyğun yaşayış yerləri və başqaları ilə bərabər əsasda dolanışıq imkanları ilə təmin etməklə yanaşı, onların hüquqlarına hörmət edilməsinə və qorunmasına yönəlmiş addımlar atmalıdır.

Qayıdışa dair planlar yetişdikcə, Amnesty International təşkilatına dəfələrlə müharibədən əvvəlki icmalarına qayıtmağı arzuladıqlarını bildirən yaşlı nəsil, böyük bir ehtimalla ilk qayıdanlar arasında əksəriyyət olacaqlar və ümumiyyətlə, gənc nəsildən fərqli olaraq, onların qayıtmasına daha çox ehtimal var. Qayıdış prosesində köçkün yaşlı insanların hüquqlarına hörmət edilib qorunmasını təmin etmək üçün Azərbaycan hökuməti onlarla tez bir zamanda və mənalı şəkildə əlaqə qurmalı, hər hansı sorğu və ya məlumat toplanması tədbirlərində müxtəlif yaşlı insanların tam iştirakını təmin etməli və qayıdışa dair bütün sorğu nəticələrini şəffaf və açıq şəkildə ictimailəşdirməlidir.

# NƏTİCƏLƏR VƏ TÖVSİYƏLƏR

Azərbaycan üçün 1990-cı illərdə erməni qüvvələri tərəfindən işğal olunmuş ərazilərə potensial olaraq yüz minlərlə köçkünün qayıdışının təşkilatçılığı çətin vəzifədir. Bu heç də asan bir iş deyil, çünki bu iş bir milyona yaxın minanın təmizlənməsini, infrastrukturun yenidən qurulmasını və onlarla yox, yüzlərlə kənd və şəhərin yenidən tikilməsini tələb edir. Böyük ehtimalla müharibədən əvvəlki icmalarına sıx bağlantıları olan yaşlı nəsil, bu ərazilərə qeyri-mütənasib rəqəmlərdə ilk qayıdanlar arasında olacaqlar və çox güman ki, gənc nəsildən fərqli olaraq, onların ümumiyyətlə qayıtmasına daha böyük ehtimal var.

Ona görə də vacibdir ki, Azərbaycan hökuməti qayıdışlarına dair hərhansı məsləhətləşmələrdə yaşlı qadınlar, yaşlı əlillər və daha qoca insanlar da daxil olmaqla, müxtəlif yaşlı iştirakçıların mənalı iştirakın təmin etsin. Böhranlı vəziyyətlərdə yaşlı insanlar çox vaxt kənarlaşdırılırlar, qismən ona görə ki, çoxları onların qohumlarının onların qayğısına qaldığı sterotipi mövcüddür. Hazırda məlumat toplama və qayıdışlara dair planlar formalaşdığına görə, Azərbaycan hökuməti yaşlı insanların ehtiyaclarının və hüquqlarının təmin edilib tamamilə nəzərdən keçirilməsinə vaxt ayırmalıdır.

Bu hesabatda qeyd olunan hekayələr yaşlılığın münaqişə və köçkünlüklə kəşisməsinin yaşlı insanların marjinallaşmasının ağırlaşması ilə nəticələndiyini aydın şəkildə göstərir. Bir çox köçkün insan hələ də Azərbaycanda yataqxanalar və ya digər qeyri rəsmi yaşayış yerlərində yaşasalar da, əlil olma ehtimalı daha çox olan yaşlı insanlar üçün bu cür yaşayış yerləri uyğun deyil, çünki onları evə məhdudiyyətləşdirir və adekvat və təhlükəsiz sanitariyadan məhrum edir. İş yerlərində yaşlı insanlara qarşı ayrı-seçkiliq global səviyyədə genişmiqyasda icra olunur, lakin bu yaşlı köçkün insanların üzərinə xüsusi bir yük qoyur: torpağa və ya əl işləri üçün zəruri alət və avadanlığı əldə etməyə imkanları olmadan, yaşlı köçkün insanlar zəruri yemək və dərman almaq üçün kifayət qədər pul qazanmaqda çətinlik çəkirlər.

Azərbaycan bu məsələləri yaşlı köçkünlərin ehtiyaclarını nəzərə alaraq və bütün yaşlı insanların hüququnu pozan məcburi təqaüd yaşının tətbiqi kimi metodları ləğv edərək çözə bilər. Beynəlxalq cəmiyyət isə öz növbəsində yaşlı insanların hüquqlarının qorunmasına dair sazişi irəli aparmaqla daxil, yaşlı insanların müdafiəsi üçün monitorinq, hesabat və cavabdehliyə dair normativ çatışmazlıqları aradan qaldırmalıdır.

## TÖVSİYƏLƏR

### AZƏRBAYCAN QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ VƏ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNƏ

- Azərbaycan Əlilliyi Olan Şəxslərin Hüquqları Haqqında Konvensiyanı və İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Paktı imzalamış dövlət olaraq üzərinə götürdüyü öhdəliklərinə əsasən, hərəkət məhdudiyyəti, eşitmə və ya görmə zəifliyi və digər əlilliyi olan yaşlı şəxslər daxil olmaqla, yaşlı şəxsləri münasib yaşayış yerlərilə təmin etməlidir. Onların xüsusi ehtiyaclarını nəzərə alsaq, müharibədən əvvəlki ərazilərdə yenidənqurma və qayıdış səylərindən asılı olmayaraq, hazırki icmalarında köçkünləri yaşayış yerlərilə təmin edərkən əlilliyi olan yaşlı insanların prioritetləşməsini təcili olaraq təmin edin.

- Iş yerlərinə qayıtmaq, kapital əldə etmək və ya torpaqdan istifadə etmək imkanları verən layihələrin prioritetləşdirirlməsi daxil olmaqla, köçkün edilmiş insanların dolanışıq imkanları ilə təmin edilməsinə yönəlmiş addımlar atın. Bu cür layihələrin yaradılmasl və icrasında köçkün edilmiş yaşlı insanların başqa qruplarla ayrı-seçkiliyə yol vermədən iştirakını və məsləhətləşmələrini təmin edin.

- Əmək məcəlləsində işə qəbul edilmə prosesində ayrı-seçkiliyi və 65 yaşından məcburi təqaüdü ləğv etmək daxil olmaqla, iş yerlərində yaşlı insanlara qarşı ayrı-seçkiliyin qarşısını almaq üçün tədbirlər görün.

- Daxili qeydiyyat sistemini (propiska) hələ də qüvvədə saxlayan qanunların islahatını və bunu əvəz edən hərhansı sistemin hərəkət azadlığı və yaşayış yeri seçimi daxil olmaqla, insan hüquqlarına tam hörmət edib qorumasını təmin edin.

- Köçkün edilmiş əhalinin qayıdışları barədə sorğulanmalarına dair sualları, seçilmə prosesini və nəticələri şəffaflandırın və ictimailəşdirin. Yaşlı insanlar daxil olmaqla, hər bir insanın potensial olaraq qayıdışına əhəmiyyəti olan yaşayış yerləri, torpaq, səhiyyə və digər xidmətlərilə təminatı barədə adekvat iştirakını təmin etmək üçün, köçkün edilmiş əhalinin müharibədən əvvəlki icmalara qayıdışlarına dair sorğuların inklyusiv, ailəvi yox, fərdi səviyyədə aparılmasını təmin edin.

- Yaşlı köçkün insanlar daxil olmaqla, bütün köçkün edilmiş insanlara qayıdışlarına dair məlumatlandırılmış seçimlər etməyə imkan vermək üçün, onları yenidən məskunlaşma imkanları və yenidən məskunlaşmaya alternativ olaraq hazırda yaşadıqları icmalara inteqrasiya olunmaları barədə məlumatlandırmaq daxil olmaqla, qayıdış vəziyyəti barədə tam, obyektiv, aktual və dəqiq məlumatla təmin edin.

- Yaşlı insanlar daxil olmaqla, köçkün edilmiş hər bir insanın təhlükəsiz və ləyaqətli qayıdışını təmin edin, və yaşayış yeri, dolanışığı və dəstək xidmətlərinə dair qərarlarda iştirakları daxil olmaqla, öz qayıdışlarının planlaşdırılması və icrasında tam iştiraklarını təmin edin.

- Köçkün edilmiş yaşlı insanların təhlükəsiz qayıdışı üçün, onların və onları təmsil edən təşkilatların münaqişədən təsirlənən rayonlardan təxliyə planlarının hazırlanmasında mənalı iştirakını, və bu planlara, xüsusilə də yaşlı qadınlar, əlilliklə yaşayan yaşlı insanlar və tək yaşayan yaşlı insanların ehtiyacları daxil olmaqla, yaşlı insanların ehtiyaclarını qarşılayan müddəaların daxil olunmasını təmin edin.

- Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyaya öhdəliklərinə əsasən Azərbaycan məcburi köçkünlərin, xususilə də yaşlı şəxslərin dolanışıq vasitələri, gəlir gətirən imkanları və əlil olan yaşlı şəxslər üçün fərdi yardım da daxil, ev daxilində, yaşayış yerlərində və digər icma dəstəyi xidmətlərilə təmin edin və qayıdışları barədə qərar verərkən bu xidmətlər barədə məlumatların yaşlı insanlara çatdırılmasını təmin edin; və

- Dolanışıq imkanları üçün dəstək və gəlir yaratma imkanları da daxil olmaqla, məcburi köçkünlərin özlərini dolandırmaları məqsədilə iqtisadi imkanların yaradılmasını təmin edin.

## AZƏRBAYCAN PREZİDENTİNƏ, XARİCİ İŞLƏR NAZİRLİYİNƏ, VƏ MÜDAFİƏ NAZİRLİYİNƏ

- Minaların Qadağası Müqaviləsini (Ottava Konvesiyasını) ratifikasiya edin və azərbaycan qüvvələri tərəfindən piyadalara qarşı minaların toplanması, hasilatı və daşınmasına son qoyulmasını təmin edin; və

- Cenevrə Konvensiyalarına Əlavə Protokol I-i ratifikasiya edin və yerli qanun və hərbi siyasətin beynəlxalq qanun öhdəliklərinə əsasən olmasını təmin edin.

- Azərbaycandan nümayəndə heyətinin BMT-də Yaşlanma üzrə Açıq İşçi Qrupunda mənalı iştirakını təmin edin.

## ERMƏNİSTAN HÖKUMƏTİNƏ

- Yaşlı insanlara qarşı cinayətlər daxil olmaqla, müharibə cinayətlərinə və digər ciddi beynəlxalq humanitar qanun pozuntularına dair iddiaların müstəqil və qərəzsiz araşdırılmaların aparılmasını və məsuliyyətə cəlb olunmalarına kifayət qədər sübüt toplanan şəxslərin ədalətli məhkəmələrdə mühakimə edilməsini təmin edin.

- Mövcud olan ən dəqiq və ətraflı mina xəritələrinin mübadiləsi daxil olmaqla, Azərbaycandaki minatəmizləmə səylərində əməkdaşlıq edin,

- Yaşlı insanlar daxil olmaqla, beynəlxalq humanitar və insan hüquqları qanunları pozuntularından əziyyət çəkən hər kəsi gecikdirilmədən tam və adekvat təzminatla təmin edin.

- Mülki əhalinin münaqişədən qorunması öhdəliyi və digər qruplarla yanaşı yaşlı insanların xüsusi müdafiəsi daxil olmaqla, beynəlxalq humanitar qanununa tamamilə hörmət edin.
- Amnesty International tərəfindən bu hesabatda və əvvəlki nəşrlərdə sənədləşdirilmiş yaşlı insanlar üçün açıq-aydın riskləri nəzərə alaraq, yaşlı mülkilərin hədəfə alınmayacağını və ya qeyri-qanuni hücumlara məruz qalmayacaqlarını aydın, sərt və ictimai şəkildə bəyan edərək yaşlı insanlara qarşı pozuntuların təkrarlanmamasını təmin edin; və
- Minaların Qadağası Müqaviləsini (Ottava Konvesiyasını) ratifikasiya edin və erməni qüvvələri tərəfindən piyadalara qarşı minaların toplanması, hasilatı və daşınmasına son qoyulmasını təmin edin.

## TƏHLÜKƏSİZLİK ŞURASI VƏ İNSAN HÜQUQLARI ŞURASI DAXİL OLMAQLA, BMT ORQANLARINA

- Silahlı münaqişədə yaşlı insanların vəziyyətinin monitorinqini və ətraflı hesabatlanmasını artırın və silahlı münaqişədə yaşlı insanların vəziyyəti barədə dövri hesabatlar tələb edin.
- Dağlıq Qarabağa dair hərhansı bir qətnamə və ya bəyanatda yaşlı insanların vəziyyətinin işıqlandırılmasını təmin edin; və
- BMT-nin Yaşlanma üzrə Açıq İşçi Qrupu ilə sıx məsləhətləşmə çərçivəsində konkret vaxt qrafiki və layihə kağızı üçün təkliflər daxil olmaqla, BMT-nin Yaşlıların Hüquqları Konvensiyası ətrafında söhbətləri irəliyə aparın.
- Universal Dövri İcmaldan keçməkdə olan dövlətlərə BMT-nin Yaşlanma üzrə Açıq İşçi Qrupu ilə sıx məsləhətləşmə çərçivəsində Yaşlıların Hüquqları Konvensiyası ətrafında söhbətləri irəliyə aparmaqla daxil olaraq, münaqişədə olan yaşlı insanların hüquqlarını qorumaq tövsiyələrinizi verin.

## AVROPA ŞURASINA

- Avropa Şurası və hökumətlərarası və ekspert qurumların, əməkdaşlıq proqramları və Avropa Şurasının ölkə ofislərinin Azərbaycan və Ermənistan arasındakı münaqişədən təsirlənən yaşlı şəxslərin vəziyyətini müşahidə və işıqlandırmağa davam etmələrini təmin edin: və
- Avropa Şurasının Azərbaycan (2022-2025) və Ermənistan (2023-2026) üçün xüsusi ölkə Fəaliyyət Planlarında 2020-ci ildəki ən son döyüşlər daxil olmaqla, uzunmüddətli münaqişənin yaşlı insanların üçün yaratdığı risklərin aradan qaldırılmasına yönəlmiş təminatların əlavə olunmasını təmin edin.

# AMNESTY INTERNATIONAL İNSAN HÜQUQLARI ÜÇÜN QLOBAL HƏRƏKATDIR. BİR NƏFƏRƏ ƏDALƏTSİZLİK BAŞ VERƏNDƏ, BİZİM HAMIMIZ ÜÇÜN VACİBDİR.


BİZİMLƏ ƏLAQƏ SAXLAYIN

info@amnesty.org

+44 (0)20 7413 5500

SÖHBƏTƏ QOŞULUN

www.facebook.com/AmnestyGlobal

@Amnesty

# "QUTUDA HƏYAT"

## AZƏRBAYCANDA YAŞLI INSANLARIN KÖÇKÜNLÜK TƏCRÜBƏSI VƏ QAYIDIŞ PERSPEKTIVLƏRI


Ermənistanla müharibədən qaçan yarım milyondan artıq azərbaycanlı 30 ildən çoxdur ki, qeyri-müəyyənlikdə yaşıyır. 2020-ci ildə yenidən başlanmış döyüşlər Azərbaycanın böyük əraziləri qaytarması ilə nəticələnib. Hökumət bu torpaqlara yüz minlərlə məcburi köçkününü qayıdışını planlaşdırdıqca, doğma icmalarına güclü bağlantısı olan yaşlı insanların böyük sayda qayıtmaslna böyük ehtimal var.

Bu hesabat ilk növbədə Azərbaycanda 40 nəfər yaşlı köçkünlə müsahibələr əsasında hazırlanıb. Hesabat onların münaqişədə başlarına gələnləri və köçkünlükdəki həyatlarını nəzərdən keçirir: hökumət yaşayış şəraitlərini və dolanışıq imkanlarını yaxşılaşdırmaq üçün addımlar atsa da, hər iki məsələdə yaşlı insanlar xüsusi çətinliklərlə üzləşməkdədirlər. Bu hesabat yaşlı insanların müharibədən əvvəlki icmalara qayıdışlarına dair perspektivlərini, narahatlıqlarını və ehtiyaclarını tədqiq edir.

Azərbaycandaki yaşlı insanlar çox zaman necə və harada yaşayacaqları yerlər barədə söhbətlərdən kənar saxlanılıblar. Azərbaycan onların hazırki şəraitlərini yaxşılaşdırmaqla və potensial qayıdışları barədə onlarla mənalı şəkildə məsləhətləşməklə buna çarə tapa bilər. Öz növbəsində isə beynəlxalq cəmiyyət onların hüquq müdafiəsindəki qüsurları aradan qaldırmaq üçün yaşlı insanların hüquqları üzrə bir müqavilənin qəbul edilməsinə yönəlmiş səyləri sürətləndirməlidir.



INDEKS: EUR 55/5215/2022
MAY 2022
LANGUAGE: AZERI
amnesty.org